# Aşıq Ələsgərin yaradıcılığında təlim-tərbiyə məsələləri

**Əminə Baba qızı Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət*
*Universitetinin dosenti*
**E-mail:** aminaqadimova@admil.edu.az

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
filol.ü.f.d., dos. V.M. Adilov

**Açar sözlər:** Aşıq Ələsgər, aşıq yaradıcılığı, şifahi xalq ədəbiyyatı, ozan, ustad aşıqlar
**Ключевые слова:** Ашуг Аласгар, творчество ашугов, устная народная литература, поет, мастера-ашуги
**Key words:** Ashug Alasgar, ashug creativity, oral folk literature, poet, master ashugs

Respublikanın həyatında baş verən mühüm hadisələr xalqımızda, o cümlədən də gənc nəsildə milli mənlik şüurunun oyanmasını, soy-kökümüzdəki, milli mədəniyyətimizdəki və onun üzvü tərkib hissəsi olan tarixi pedaqoji irsimizdəki mütərəqqi cəhətləri dirçəltməyi və gənc nəslin təlim-tərbiyə işlərində ondan yaradıcılıqla istifadə etməyi zəruri tələb kimi qarşıya qoyur. Bu tələbi yerinə yetirmək baxımından keçmişdə yaşayıb-yaratmış ustad aşıqların zəngin yaradıcılığından bizə çatmış nümunələrdəki qiymətli tərbiyəvi fikirlərlə məktəbliləri yaxından tanış etməyin əhəmiyyəti böyükdür.

Aşıq sənəti əsrlər boyu Azərbaycan xalqının ruhunda, qəlbində, mənəvi aləmində, dünyagörüşündə özünə möhkəm yer tutmuş, saz-söz sənətimizə yeni-yeni musiqi əlvanlığı və poetik boyalar qazandırmışdır. Əvəzsiz xidmətləri ilə adları hörmətlə anılan, adları mədəniyyət tariximizə qızıl hərflərlə həkk olunmuş ustad aşıqlarımızın bu xəzinəyə bəxş etdikləri sənət inciləri həmişə xalqımızın diqqətini özünə cəlb etmişdir.

Aşıq yaradıcılığı sinkretikdir, yəni özündə bir neçə sənət sahəsini birləşdirir. Aşıq bəstəkardır, şairdir, instrumental və vokal ifaçıdır, natiqdir, aktyordur. Bütün bu keyfiyyətlərlə aşıq el adamıdır, məclislər böyüyüdür, sözü gedən ustaddır. Azərbaycan xalqının həyati baxışları hər adama, hər aşığa “ustad” deməyə icazə vermir. Müdrik, tərbiyə etməyi, təlim verməyi bacaran şəxs bu məqama yüksəlir. Sazın qopuz, aşığın ozan adlandırdığı erkən dövrlərdən üzü bu yana ustad aşıqlarımız çox olmuşdur. Onların yaratdığı bədii irs böyüməkdə olan nəslin tərbiyəsində xüsusi rol oynamış, bu gün də oynamaqdadır.

Folklorşunas Ə.Axundov, M.H.Təhmasib, M.Həkimov, S.Paşayev, P.Əfəndiyev və b. aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatının bir qolu hesab edirlər. Bu səbəbsiz deyil. Azərbaycan musiqi sənəti tarixən iki istiqamətdə inkişaf etmişdir: 1) muğam, 2) aşıq sənəti.

Muğam qəzəl üstündə oxunduğu üçün yazılı ədəbiyyatla vəhdətdədir, yazılı ədəbiyyat isə qədim dövrlərdə şifahi olaraq mərkəz olan şəhərlərdə yaranırdı. Aşıq musiqisi elat həyatının dəyərlərindən biri olmaqla sinədən deyilən, yazıya alınmamış, bədahətən qoşulmuş sözlə vəhdətdəydi.

Mənbələrə istinadən deyə bilərik ki, aşıq sənəti müxtəlif mərhələli uzun inkişaf yolu keçmişdir. Məqalənin tələbinə müvafiq olaraq həmin tarixi dövrləri təhlil etmədən XVI əsrdən XX əsrin əvvəllərindəki olan müddətdə yaşayıb yaratmış ustad aşıqlardan Qurban, Abbas Tufaqqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Alı, Molla Cümə, Aşıq Mirzə Bilal, Aşıq Ələsgər və

başqalarının adını çəkə bilərik. Onların qoşma, təcnis, gəraylı və s. şəklində qoşduqları şeirlər özlərinin ifasından sonra el arasında şifahi yayılmış və yalnız XX əsrdə tədqiqatçılar tərəfindən toplanaraq yazıya köçürülmüşdür.

XX əsr şeirinin şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçid dövrüdür. Artıq məktəb görmüş, təhsil almış aşıqlar bu dövrdən etibarən şeirlərini özləri qələmə almış və həm şifahi, həm də yazılı təbliğinə nail olmuşlar. Aşıq Şəmşir, Aşıq Hüseyn Saraclı, Aşıq Şakir, Aşıq Qurban, Aşıq Pənah, Aşıq Mikayıl Azaflı, Aşıq Ədalət və başqaları bu dövrün aşıqlarıdır.

Məlum olduğu kimi aşıqlar, xüsusilə ustad (dədə) aşıqlar əsl xalq aşıqlarıdır. Böyüməkdə olan nəsil onların əsrlərdən bəri ağızdan-ağıza, nəsildən-nəslə keçən yaradıcılığı ilə planlı şəkildə tanış olurlar.

Böyük yaradıcılıq istedadına malik olan, öz xalqını və vətənini yüksək məhəbbətlə sevən Aşıq Ələsgər aşıq poeziyası tarixində yüksək keyfiyyətli sənət nümunələri yaradıb. Aşıq Ələsgər öz dövrünün ustad aşıqlarından olmuşdur. O, gözəl istedada, coşqun təbə, böyük yaradıcılıq qabiliyyətinə malik sənətkardır.

Aşıq Ələsgər yaradıcılığında xalqımızın cismani və mənəvi gözəlliyi ilə yanaşı, milli dünyagörüşü, maddi və mənəvi mədəniyyətimizi əks etdirən məlumatlar boyalarla öz əksini tapmışdır. Aşığın şeirlərinin dili öz xəlqiliyi, sadəliyi ilə seçilir, el sözlərindəki məna zənginliyi və yenilik onun dilini səciyyələndirən elementlərdir. Şübhəsiz ki, aşıqla eyni dövrdə yaşamış klassik poeziya üslubunda yazıb-yaratmış sənətkarların bədii yaradıcılığı ilə tanışlıqdan sonra və Ələsgərin yaradıcılığını izlədikcə onda milli etnoqrafiyamız, məişətimizlə bağlı sözlərə, geyim, bər-bəzək adlarına bol-bol rast gəlirik.

Aşıq yaradıcılığı bütün janrların və etik-estetik dəyərləri ilə kamil bir məktəbdir, aşıq isə müəllim. Ona görə də aşığın şəxsiyyəti qarşısında pedaqoji tələb durur:

Aşıq olub diyar-diyar gəzənin
Əzəl başdan pür kamalı gərəkdir.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmindən dolu gərəkdir.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdir.

Aşıq Ələsgər el-el, oba-oba, diyar-diyar, məclislər idarə edir. Tanıyıb bilmədiyi insanlarla ünsiyyətdə olur. Səsi və sənəti ilə yanaşı, ağılı, kamalı, ədəb-ərkanı, mərifəti, mənəvi paklığı, onun şəxsiyyəti, ləyaqəti xalqa təqdim edən dəyərlərdəndir. Aşıq sadəcə çalıb-oxuyan yox, həm tərbiyəçidir. Əgər şəxsi nümunəsi qənaətbəxş olmasa, sənəti heç kəsə gərək deyil. Aşığı təsdiq və təbliğ edən, hörmət-izzət məqamına yüksəldən həm də şəxsiyyətdir. Elmi pedaqogika bunu "tərbiyədə şəxsi nümunə prinsipi" adlandırır. Aşıq Ələsgərin təfsirində şəxsi nümunəsi diqqət cəlb edir:

Yaxşı hörmət ilə, təmiz ad ilə
Mən dolandım bu Qafqazın elini.
Pirə (yəni-qoca) ata dedim, cavana qardaş,
Ana-bacı bildim qızı-gəlini.

Ustad aşığın bu cür ağıllı məsləhətlərlə, öyüd-nəsihətlərlə dolu olan irsini bilmək adamı nəcib keyfiyyətlər ruhunda formalaşdırır. Şəxsiyyətin formalaşmasına təsir edən amillər-irsiyyət, qismət, mühit aşıq şeirinin mövzularındandır. Tərbiyə mövzusunda fikirlər də əzəmi dərəcədə yüksək səviyyədədir.

Xalq pedaqoji baxışlarını yüksək səviyyədə əks etdirən aşıq yaradıcılığında təbiət gözəllikləri şövqlə vəsf olunur. Aşıq estetikdir, o gözəllikdən zövq almağı bacarır, onu təbliğ etməyi özünə borc bilir. Gözəlliyə edilən qəsd aşığı kədərləndirir. O, gözünün gördüyünü, sözünün qüdrətilə insanlar üçün təsvir edir, onları insafa, mürüvvətə səsləyir kədər özünü göstərir:

Getdim, güzarım düşdü bu dağa,
Ovçu bərəsində maralı gördüm,
Yatıb inildəyir, durub boylanır,
Bir neçə yerindən yaralı gördüm.

Təbib olsam, yaraların bağlaram,
Sinəm üstün düyünlərəm, dağlaram.
Ələsgərəm, o səbəbdən ağlaram,
Ananı baladan aralı gördüm.

Aşığı ağlamaq həddinə çatdıran bu təsadüf və onun təsviri nəinki böyüməkdə olan nəslin ekoloji tərbiyəsi üçün dəyərli materialdır, həm də müəyyən yaşa çatmış insanların səhvlərini diqqətə çəkən faktdır.

Aşıq şeirlərində tərbiyənin bütün istiqamətləri əhatə olunur. Həmin şeirlər didaktik fikirlərlə zəngindir, mənəviyyata çağırış motivləri çox güclüdür. Xüsusən ustadnamələr nəsihət dolu şeirlərdir. Adından göründüyü kimi, ustadnamə-ustad sözü, ustad kəlamıdır. Bir qayda olaraq, dastanların əvvəllərində söylənir, ya da müstəqil mahnı kimi oxunur.

Aşıq məclisin nəzər-diqqətini cəmləmək, həmçinin şəxsiyyətinə, ləyaqətinə bələd olmadığı insanları özünə ram etmək üçün əvvəlcə ustadnamə söyləyir, müvafiq psixoloji ab-hava yaradır.

Aşıq yaradıcılığı tarixində ustad aşıqların tapşırması ilə məşhur olan çox sayda ustadnamələr var. Aşıq Ələsgər demişdir:

Can deməklə candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
Çor deməyin nəfi nədir dünyada?
Abad könülləri pərişan eylər.

Nakəs adam danışmaqdan saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nuftədə qarışan şeyidbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

...Mən istərəm alim, mömin yüz ola,
Gözü haqq yolunda doğru, düz ola.
Danışanda sözü dübbədüz ola,
Ələsgər yolunda can qurban eylər.

Birinci bənddə aşıq ünsiyyət mədəniyyətinə işarə edir. İnsanı xoş ülfətə səsləyir.

İkinci bənddə irsiyyət məsələsinə toxunur. əsil-nəcabətində qüsur olan adamın işinin söz-sov olmasından, mərhəmətdən, lütfkarlıqdan, comərdlikdən uzaqlığından, mərd insanların isə təbinin belə şeyləri götürməməsindən, nəticədə qan tökülməsindən danışır.

Üçüncü bənddə elmi, Yaradana sədaqətli, doğru yolun yolçusu, düzdanışan insanların çox olmasını arzulayır və belə şəxslərə canını qurban edə biləcəyini söyləyir. Beləliklə də, onu dinləyənlərə düzlük, doğruluq, halallıq, gözəl ünsiyyət, daxili zənginlik kimi mənəvi keyfiyyətlər təbliğ edir.

Aşıq Ələsgərin şeirinin ana xətti mənəvi-estetik dəyərlərdir. Aşıq vətən torpağını, nər igidləri, qənirsiz gözəlləri, ağır elləri, müdrik ağsaqqalları vəsf edəndə də, namərdə, xainə, gədaya töhmət vuranda da məhz meyarı əsas götürür. Ona görə də aşıq şeiri cəmiyyətin nizamlı sözlə ifadə olunmuş təlim və tərbiyə xəzinəsidir.

Aşıq Ələsgər qoşmasında ermənilərin qəddarlığına dözə bilmir, etiraz səsini ucaldır, fəryad edir. Onun şeirində ayrılıq, intizar, vətən həsrəti kimi motivlər də qüvvədədir.

Bir ay yarım nobahardan keçəndə
Car olur köysündən sellərin, dağlar!
Çalxalanır dəryalar, çığrışır qarlar
Zəmzəm zümzüməli göllərin, dağlar!

Həsən nənə, Həsən baba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgər tək qulların, dağlar!

Qoşma 1905-ci ildə ermənilərin bizə qarşı törətdiyi ixtişaşlar zamanı yazılıb. Özünə ölüm arzulayan aşığın vətənpərvərlik və vətəndaşlıq duyğuları göz qabağındadır. Bəs səksən il sonra nə oldu? Daha sonra nə olacaq? Ustad Ələsgərin o yerlərdə didərgin qalmış ruhu yəqin ki, suala cavab gözləyir.

Aşıq şeirinin özəlliklərindən biri də deyişmə, hərbə-zorba, qıfılbənd, bağlama və müəmmalardır. Sənətin bu növündə aşıqlar bir-birinin ağlını, zehnini, fəhmini, biliyini imtahana çəkmişlər. Belə yarışmaların ustadlararasında keçirilməsinə baxmayaraq, böyüməkdə olan nəslin əqli və zehni tərbiyəsində, savadlanmasında böyük rolu olmuşdur, bu gün də həmin nümunələr öz aktuallığını, təravətini itirməmişdir. Məsələn, bir müəmma:

Bu günlərdə bir hikmətə tuş oldum,
Adlı-sani hər aləmdə deyilir.
Şəriət ətini haram buyurub,
Halal olan sümükləri yeyilir.

Mudam ayağından kəsiməz abı,
Abını kəsəndə heç olmaz tabı.
Çox əziz yaradıb kərəm sahabi,
Toxmağınan təpəsinə döyülür.
Ələsgər ərz eylər, ariflər qana,
Üç ayda, dörd ayda o qədər can,
Lətifdi xörəyi, qarışır qana,
Dərmanı var cəsədində yayılır.

Müəmma düyü haqqında deyilmişdir, tərbiyəvi xüsusiyyəti ilə yanaşı, təlimedici gücə malikdir. Ustad aşığın bu cür ağıllı məsləhətlərlə, öyüd-nəsihətlərlə dolu olan irsini bilmək adamı nəcib keyfiyyətlər ruhunda formalaşdırır. Odur ki Hər bir müəllim aşıq poeziyasına biganəlik göstərməməlidir. Əksinə həmin poeziya ilə yaxından tanış olmalı və şagirdərdə ona dərin maraq doğrutmalıdır. Həmin məqsədlə tədris edilən fənlərin imkanlarından sinifdənxaric tərbiyəvi tədbirlərdən yerli-yerində istifadə etməlidir.

Ümumən, aşıq şeirində təlim tərbiyənin vəhdəti mövcuddur və təlim ideyaları tərbiyəyə xidmət edir. Nəticə olaraq deməliyik ki, Aşıq Ələsgərin yaradıcılığını öyrənməklə onun bütün şeirlərinin insanın, mənəvi tərbiyəsi üçün yazıldığını görmüş oluruq.

**Məqalənin aktuallığı.** Məqalədə Aşıq Ələsgərin şeirlərinin təlim-tərbiyə məsələlərinə diqqət yetirilmişdir. Ustadın şeirlərində uşaq, yeniyetmə və gənclərin tərbiyəsi, vətənpərvərlik mövzularına xüsusi həssaslıqla yanaşır. Aşıq Ələsgər poeziyasına müasir günümüzdə pedaqoji istiqamətdən yanaşaraq araşdırmağa zəruri ehtiyac var. Təlim-tərbiyə yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və vərdişlərin gələcək nəsillərə ötürülməsi və aşılanmasıdır, dinamik proses və mürəkkəb sistemidir. Məhz bu məqalədə zəngin yaradıcılığa malık olan Aşıq Ələsgər əsərindəki mənəvi tərbiyə məsələlərinin bəzi istiqamətləri təhlilə cəlb edilmişdir. Bu baxımdan ailədə uşaqların tərbiyəsi, onların inkişafı həmişə ən mühüm məsələlərdən biri hesab olunur, Azərbaycan xalqının tarixi keçmişinin öyrənilməsi bu gün də aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə Aşıq Ələsgərin yaradıcılığında pedaqoji aspektdən yanaşılmış, aşığın yaradıcılığında tərbiyənin aktual məsələləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə verilən tərbiyəvi fikir və düşüncələr yetişən nəsillərin yüksək yurdsevərlik, vətən təəssübkeşliyi və milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə işinin təşkilində mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat


1. Bədəlova Ə. Təlim-tərbiyə. Bakı, 2015.
2. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, 2000.
3. Həşimov Ə., Sadıov F. Azərbaycan xalq pedaqogikası antologiyası. Bakı, 1993.
4. Ustad aşıqlar. Bakı, 1983
5. Namazov Q. Azərbaycan xalq sənəti. Bakı, 1984.
6. Paşayev S. Ozan aşıq sənətinin nəzəri məsələləri. Bakı, 2002.
7. Xalq ədəbiyyatında seçmələr. Bakı, 2006.
8. Zəlimxan Yaqub. Ələsgər ocağı. Bakı, 1991.
9. Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı, 1996.


**А.Б. Кадимова**

## Вопросы образование в творчестве Ашига Алескера

## Резюме

Статья посвящена познавательной проблематике стихотворений Ашуга Алескера. В стихах мастер с особой чуткостью относится к темам воспитание детей, подростков, молодежи и патриотизма. Есть потребность в современном педагогическом изучении

поэзии Ашуга Алескера. В данной статье анализируются некоторые аспекты воспитательной проблематики в творчестве Ашуга Алескера, обладающего богатым творчеством.

**A.B. Gadimova**

## Educational issues in the creativity of Ashig Alasgar

## Summary

The article is devoted to the cognitive problems of poems by Ashig Alasgar. In poetry, the master is especially sensitive to the topics of education of children, adolescents, youth and patriotism. There is a need for a modern pedagogical study of the poetry of Ashig Alasgar. This article analyzes some aspects of educational problems in the work of Ashig Alasgar, who has rich creativity.

**Redaksiyaya daxil olub:** 08.06.2022